Fərman Nəbiyev
«Üzüsulu» yol
Mingəçevir İşıqları No 17 (5947) 4-10 may 2003

Azərbaycan DRES-də «ixtisara düşmüş» Bəhman Qayıdovun işə bərpası ilə bağlı məsələyə Avropa Məhkəməsində baxılacaq

«Mingəçevir İşıqları» 1999-cu ildən üzü bu yana Azərbaycan DRES-də və Xüsusiləşdirilmiş Təmir-Quraşdırma Müəssisəsində törədilən qanunsuzluqlar barədə dəfələrlə yazıb. O zaman stansiyanın idarə həmkarlar təşkilatına rəhbərlik edən və xırda bir vəzifədə çalışan Bəhman Qayıdov cinayətkar qrupa qarşı təkbaşına mübarizə aparanlardan biriydi və çox keçmədi ki, o, bunun ağır zərbəsinə məruz qaldı. Azərbaycan DRES-in sabiq direktoru Nazir Əsədov ixtisar adı ilə onu stansiyadan uzaqlaşdırdı. Lakin bundan sonra da «əlləri qana batanlar» talamaq, dağıtmaq əqidələrindən dönmədilər.

Azərbaycan Respublikası Yanacaq və Energetika Nazirliyi «Azərenerci» Açıq Səhmdar Cəmiyyəti Maliyyə-İqtisadiyyat idarəsinin rəisi F.Bağırovun imzası ilə B.Qayıdovun adına ünvanlanmış 08-X/103 No -li 20 fevral 2003-cü il tarixli məktubdan: *«Azərbaycan Respublikası Prezidentinin ünvanına göndərdiyiniz 20 yanvar 2003-cü il tarixli məktubunuza cavab olaraq bildiririk ki, 1996-1999-cu illərdə Azərbaycan DRES-də təmir işləri aparmış «Xüsusitəmirquraşdırma» müəssisəsində yol verilmiş neqativ hallara görə bir çox işçi tutduqları vəzifələrindən azad olunmuş, yeddi nəfər isə məhkəmə tərəfindən cəzalandırılmışdır. «Xüsusitəmirquraşdırma» müəssisəsi isə bir hüquqi şəxs kimi artıq ləğv edilmişdir. 2000-ci ilin oktyabr ayında Azərbaycan DRES-də aparılan ixtisar ilə əlaqədar siz işdən azad edilmişsiniz.*

*Eyni zamanda bildiririk ki, hər hansı qanunsuzluqlar və neqativ faktlar barədə təsdiqedici sənədlər varsa, bu barədə aidiyyatı hüquq-mühafizə orqanlarına müraciət edə bilərsiniz».*

Məsələyə bir az şərh vermək istərdik. Bəlkə də, B.Qayıdovun təşəbbüsü ilə «Mingəçevir İşıqları» qəzeti vaxtında həyəcan siqnalı çalmasaydı, cinayətkar əməllərə bu günə qədər son qoyulmayacaqdı. Yuxarıdan aşağıya qədər korrupsiya üzərində qurulan aparatdan kiminsə sıxışdırılması çox nadir halda mümkündür. Elə həmin səbəbdən ictimayyətdə səs-küy yaratmış və yenidən yarada biləcək Bəhman kişinin stansiyaya qaytarılması arzuolunmazdır. Buna görə də Azərbaycan DRES-də Nazir Əsədovu əvəz edən növbəti direktorlar (İlyaz Məmmədov, Şixməmməd Aslanov) onu yaxına – ümumiyyətlə stansiyanın həndəvərinə buraxmırlar. Hətta Mingəçevir şəhər icra Hakimiyyəti başçısı Məhəbbət Qaradağlının 14.06.2002-ci ildə göndərdiyi 499 saylı məktubu da arxivə ötürürlər. Başçı yazırdı: *«B.Qayıdov 1981-ci ildən Azərbaycan DRES-də müxtəlif vəzifələrdə işləmiş və 2000-ci ilin oktyabrında ştatının ixtisarı ilə əlaqədar tutduğu vəzifədən azad edilmişdir. B.Qayıdov işdən azad edilərkən əmək qanunvericiliyinin tələblərinə uyğun olaraq ona müvafiq qaydada başqa iş təklif olunmalı idi. Lakin Azərbaycan DRES-in əvvəlki rəhbərliyi tərəfindən ona iş təklif olunmamışdır. B.Qayıdovun Azərbaycan DRES-də uzun illər işləməsini, ondan asılı olmayan səbəbdən ştatının ixtisara düşməsi ilə əlaqədar işdən azad olunmasını, çətin ailə vəziyyətini nəzərə alaraq, onun münasib işlə təmin olunması məsələsinə baxmagınızı xahiş edirik».*

Bəhman Qayıdov bir neçə ilə təqaüdə çıxacağını və uzun illər çəkdiyi zəhmətin nəticəsi kimi ömrünün qalan hissəsini fəxri istirahətdə keçirəcəyini düşünürdü. Lakin ağsaqqal yaşında ona vəzifə sahiblərinin qapılarını tanıdası oldular. Birinci mərhələdən tutmuş ta Konstitusiya Məhkəməsinə kimi üz tutmaq məcburiyyətində qaldı. Çox təəssüf ki, onun təqdim etdiyi kifayət qədər faktları bir kənara qoyub,

müdriyyətin müdafiəsinə qalxdılar (Baxmayaraq ki, Vergilər Nazirliyi, Respublika Prokurorluğu və Ali Məhkəmə Qayıdovun qaldırdığı faktlar üzrə ciddi araşdırmalar apardı, son nəticədə böyük bir müəssisə bağlandı, çinayətdə əli olan nə qədər vəzifəli şəxs məsuliyyətə cəlb olundu).

Biz də ədalətin zəfər çalacağına inanırıq. Artıq Bəhman Qayıdovun səsi Avropaya çatıb. Hüquqşünas Civan Turmangil 28 fevral 2003-cü ildə Strasburqdan göndərdiyi məktubunda bildirir: *«Məhkəmə işinizə mümkün dərəcə yaxın zamanda baxacaqdır. İşin məhkəmədə baxılması təqdim etdiyiniz sənədlər və məlumatlar əsasında keçiriləcəkdir. Məhkəmənin icraatı yazılı şəkildədir və sizin Məhkəməyə gəlməyiniz məhz Məhkəmə dəvət etdiyi təqdirdə tələb oluncaqdır. Məhkəmə tərəfindən qəbul edilən hər hansı bir qərar haqqında xəbərdar olacaqsınız».*

Görəsən, Avropaya əlləri çatmayan məmurların Qayıdovun xeyrinə qərar çıxaracağı təqdirdə üzüsulu istefaya getməyə kişilikləri çatacaqmı?